**17.09.2020: Xəbər**

## AQTA ali təhsil müəssisələri ilə onlayn görüş təşkil etdi

2020-ci il sentyabrın 16-da Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən Koronavirus (COVİD-19) pandemiyası dövründə ali təhsil müəssisələrində, həmin müəssisələrin yeməkxanalarında və bufetlərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş normalara, sanitar-epidemoloji və gigiyenik qaydalara, habelə, AQTA tərəfindən hazırlanmış metodik göstərişlərə riayət olunmaqla, işlərin təşkili ilə əlaqədar olaraq, ZOOM proqramı vasitəsilə onlayn görüş keçirildi. Görüşdə respublikada fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinin nümayəndələri iştirak edirdilər. Onlayn görüşdə bir sıra vacib məsələlər müzakirə edildi. Qida Təhlükəsizliyi Agentliyinin nümayəndəsi Əkbər Əliyev pandemiya dövründə həyata keçirilməli olan bir sıra işlər haqqında geniş məlumat verdi və ali təhsil müəssisələrində agentlik tərəfindən hazırlanmış posterlərin yayılmasının vacibliyini vurğuladı.

Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak etdi.

## FSA Organized Online Meeting with Higher Education Institutions

On September 16, 2020, Food Safety Agency (FSA) of the Republic of Azerbaijan held an online meeting via ZOOM platform regarding the conformity to the sanitary-epidemiological and hygienic rules of the higher education institutions, performance of the canteens and cafeterias of these institutions in accordance with the norms approved by the relevant decisions of the Cabinet of Ministers of the Republic of Azerbaijan, as well as to the methodological guidelines developed by FSA, during the coronavirus pandemic. The meeting was joined by representatives of all higher education institutions operating in the country. Number of important issues were discussed at this meeting. Akbar Aliyev, FSA Representative, gave detailed information about a number of activities to be carried out during the pandemic and stressed the importance of disseminating posters prepared by the agency in higher education institutions.

Alovsat Amirbayli, Khazar University's Director for Public Relations and Media, also attended the meeting.

***Hazırlayan: Əlövsət Əmirbəyli***
***Qeyd: Şəkillər haqda məlumat yoxdur.***